

Əbülfət MƏDƏTOĞLU
abulfatm@box.az

# VAHİDİN MƏCLİSİNDƏ

## Ələddin Qəmbərlə Vahidsiz söhbət

**O məclisi çoxdan gözləyirdim. Daha doğrusu, o gün üçün özümü çoxdan hazırlamışdım. İlk müjdəni alanda gözlərim dolmuşdu. Xəyalım uzaqları gəzib dolanmışdı. İllah da ki, Füzulini, Qarabağı, Tuğu, Aşağı Seyidəhmədlini Bu coğrafiya xəyalımın dinclik tapmadığı, gözünü qırpmadığı bir ərazidi. Bu coğrafiyada o qədər xatirələrim var ki, kitablara sığmaz, dəftərlərə sığışmaz. Mən bütün bunların hamısını bir qəhrəmanda tanımışam. O qəhrəman da Vahid Əlifoğlu olub. Hər sözümüz, hər söhbətimiz yazı-pozu, ailə-uşaq, bir də təbii ki, sabahkı günümüz olub. Amma inanın ki, o vaxtlar ürəyimdən keçən bir sözü Vahidin yanında deyə bilməmişdim. Lakin indi deyirəm. Ona görə indi deyirəm ki, zaman məsafəsi hiss edirəm ki, bizi yavaş-yavaş yaxınlaşdırır Yolumuzun kəsişmə məntəqəsi görünmək üzrədi. Ora gedib çatana kimi o vaxt deyə bilmədiyimi indi söyləyirəm. Əgər Vahidin ruhu bu dediyimdən inciyib əsəbləşəcəksə, onda görüşümüzə qədər yəqin ki, bir az o hirs ötüb keçər, bir az yumuşalar. Bax, bu inamla, bu istəklə demək istəyirəm ki, Vahidlə hər görüşümün sonunda istəyirdim deyəm ki, sabah açılmasın, elə bugünün içində qalaq. Görüşümüz elə bugünün içərisində davam eləsin. Lakin deyə bilmirdim. Axı sabaha daha başqa planlar, proqramlar var idi. Mən "açılma sabah", desəydim, onda o, sabahkı istəklərimizə qarşı çıxmış olurdum. Bax, bu da mənim susmağa vadar edirdi**

Bu yazımın bir məqamında sabahın açılmamasını niyə istədiyimi söylədim. Və bunun ardınca məhz barəsində yazmağa başladığım məclisin özündə də həmin o istək içimdən gəlib keçdi. Çünki məclisdəkilərin hamısının dilində, ürəyində Vahid var idi. O məclisin xeyir-dua verəni, o məclisə nəzarət edən, o məclisi istiqamətləndirən də Vahid idi. Söhbət Vahidin qızının toy məclisindən gedir. Və bu məclisdə səslənən şeirlərin böyük əksəriyyəti də Vahidin idi. Mən bütün məclisin şəklini gözlərimə çəkirdim. Musiqisini, səslənən fikirləri yaddaşıma yazırdım. Bax, belə bir anda Vahidin dostları arasında özəl yeri olan, Qarabağda hər kəsin tanıyıb sevdiyi el şairi Ələddin Qəmbəri gördüm

Düzünü deyəcəm. Mən Ələddin Qəmbəri daha çox sözündən tanımışam. Bir elin-obanın adamı olmağımıza baxmayaraq, onunla cəmi bir neçə dəfə məclis-mərəkədə qarşılaşmışam. Amma sözlərini çox sevmişəm. Üstəlik onu mənə Vahid də çox sevdirib. Adıma göndərdiyi məktublarda, yazılarda o həmişə vurğulayıb ki, oturmuşam Dördyolda, qarşımda yekə bir çaynik çay, stolun üstündə siqaret, gözümü zilləmişəm Ələddin Qəmbərin gələcəyi yola. İndi gələcək, başlayacağıq söhbətə. Əvvəl-əvvəl də səndən danışacağıq.

Bax, belə yazırdı Vahid həmişə. Bilirsiniz, bu cür təqdimatlar içdən gələndə özündən asılı olmadan sən də o təqdim edilənlərlə qaynayıb qarışırsan. Təbii ki, mən də şeirlərini çox sevdiyim, Qarabağdan olan xanəndələrin, müğənnilərin, xüsusilə Manaf Ağayevin söz çələngini nəğməyə çevirdiyi Ələddin Qəmbərin dilində, yanında olmağı özümə şərəf saymışam. Ona görə də öz növbəmdə Vahidlə hər telefon söhbətimdə Ələddini soruşmuşam, ona salamlarımı, sayqılarımı göndərmişəm. Və

Toy məclisində Vahidin əksər dostları iştirak edirdi. Mən bir-bir onların gözlərinin içinə baxırdım. O gözlərin hamısında sevinc qarışıq bir nisgil var idi. Təbii ki, bu nisgil Vahidin qızının məclisində Vahidin olmamasından irəli gəlirdi. Bu başa düşüləndi və bu həm də sevinclə kədərin doğmalığıdı. Amma Ələddin Qəmbərin gözlərindəki kədər həm də danışırdı. Mən diqqət yetirdikcə görürdüm ki, onun sifət cizgilərində bir titrəyiş var. Sanki Vahidin ruhu ondan nə isə soruşur, ona hansısa sualları verir və o da heç kimin eşitmədiyi səslə onu cavablandırır. İnanın ki, bu hal onsuz da kövrəlmiş olan ürəyimi parçaladı. Özümdən asılı olmadan yerimdən qalxdım. Getdim Getdim və sarıldıq bir-birimizə. İkimiz də eyni anda bircə kəlmə söz dedik:

- Allah xoşbəxt eləsin! Vahidin ruhu şad olsun!

Sonra çəkildik bir kənara. Bir anlıq susduq. Bu susmaq deyildi. Bu, içimizdə hər ikimizin eyni anda Vahidlə həmsöhbət olmağı idi. Elə bil Vahid bizi tərk edəndən sonra, yeni cismani ayrılıqdan keçən o zaman kəsiyindən sonra yenidən görüşdürdüyünə görə rahatlanmışdı. O təkcə qızının toyuna gəldiyimizə görə yox, həm də görüşdüyümüzə görə sevinirdi. Mən üzümü azacıq yana çevirdim ki, kirpiklərimin ucundakı parıltı görünməsin. Ələddin də belə etdi. Bunu mütləq Vahid gördü. Mən buna əminəm. Çünki Vahidin gördüyünü Ələddin də duydu və ovcumun içində olan əlini sıxdı. Bax, burdan anladım Vahidin bizi gördüyünü

Yadıma bu toydan bir neçə gün öncə yazdığım misralar düşdü. O misralar da bir kövrək məqamın yaşantıları idi. İndi yaşadıqlarıma sanki elə o kövrəklikdən keçib gəlmişdim. Ona görə də pıçıldayıram o misraları.

***Bilirsənmi,***
***bu ötüb keçən anda***
***azalır ümid də***
***hələ güman da***
***tale gözlərini mənə yumanda***
***sənin də içindən nəsə sınacaq***
***bilirsənmi,***
***yol aparan, yol alan***
***vaxt ötdükcə dönüb olur ağ yalan***
***sonra onun arxasınca ağlayan -***
***eşitdiyi hər bir səsə sınacaq!..***
***birisənmi,***
***mən kim idim, kim etdin***
***danışmadın, susmağınla him etdin***
***bir naşının köklədiyi sim etdin -***
***ilk toxunan hər bir kəsə sınacaq!..***

***

Hə, o məclisdə Vahidin dostlarından, yəni bizim çevrəmizdən olan Taleh Elsevər, yəni Taleh Əliyev də göynəyə-göynəyə, kövrələ-kövrələ çıxış elədi. Sözünün hər bir nöqtəsində Vahidi qaldırdı, qaldırdı sözünün hər bir nöqtəsində Vahidi yaşatdı, yaşatdı və nəhayət, sözünün hər bir nöqtəsində Vahidin ailəsini, dostlarını, doğmalarını ona aid olduqları üçün dəyərləndirdi. Mən bütün bunlara görə, Talehə minnətdaram. Amma demək istəyirəm ki, biz dostların, şəxsən mənim Vahidə layiq olmağım mənim özüm üçün şərəfdi. O mənim içimin istəyiydi. Mən bunu qazana bilmişəmsə, Vahid üçün qazanmamışam, özüm



üçün qazanmışam. Özüm Vahidin əhatə dairəsində olmağım üçün etmişəm. Amma nə qədər alınıb, bunu bilənlər bilir, bir də Vahid. O ki, qaldı bu məclisin ahənginə

Əlimi ürəyimin üstünə qoyub bir Allah bəndəsi kimi tam səmimiyyətlə etiraf etmək istəyirəm ki, məclis Vahidə layiq idi. Vahidin arzuladığı məclis idi. Sağ olsunlar ki, onun istəyini, arzusunu çin etmişdilər. Üstəlk, məclis həm də Vahidin istədiklərinin məclisi idi. Burda mən bir kənar, təsadüfi adama rast gəlmədim. Elə bil ki, dəvəti Vahid özü etmişdi. Bu səbəbdən içimdəki rahatlıq həm də bir gələcək xoşbəxtliyin işartısı idi. Sanki kimsə mənə pıçıldayırdı ki, Vahidin qızının qurduğu yuva əbədi və davamlı olacaq. Buna şübhə etmə. Mən də o andan bu yazını diktə etdiyim ana qədər o şübhədən uzağam və ümumiyyətlə, o şübhə mənə yaxın gəlmir. Deməli, həyatın təqdimatları belə yerdə öz gerçək üzünü göstərir. İçin rahatdısa, deməli seçim də yerindədi. Çox sevinirəm və çox istəyirəm ki, duyğularım, hisslərim məni aldatmasın. Ümumiyyətlə, Vahidin dostlarını aldatmasın!..

Bəli, həmin gün Füzulidə, Qayıdış qəsəbəsində qurulmuş məclisin başı üzərindəki ruh o məclisin qoruyucusu idi. Bir az qayğılı, bir az sevincli, bir az da duyğusal durumda. Bunlar normal olduğu kimi, həm də insanı silkələyən, insanı öz-özüylə üz-üzə qoyan, danışdıran görüntülərdi, məqamlardı. Mən o görüntülərin, o məqamların videoyazısı olan yaddaşımı indinin özündə də qapamıram, arxa plana keçirmirəm. Axı, söhbət Vahid Əlifoğludan, onun məclisindən gedir

Biz Ələddin Qəmbərlə bu məclisdə Vahidin yaxınları, doğmaları, dostları kimi görüşsək də, amma həm də şəxsən mənim içimdə bu görüşün bir adı da Vahidi ziyarət etmək idi, özü də Ələddinlə birlikdə. Elə o ziyarət pıçıladdı mənə bütün bu yazdıqlarımı, bütün bu düşündüklərimi. Necə deyərlər, sifariş Vahiddən gəlsə də, onu gerçəkləşdirmək, ona şərait yaratmaq Ələddin Qəmbərin xidməti sayılmalıdır. Təbii ki, bütün olanların və olacaqların qəhrəmanları bizdən asılı olmadan seçilir. Və biz də həmin qəhrəmanların fikirlərini sözə çeviririk. Mən bu andan sonra bir müddət düşündüm. Nələr baş verdiyini, nələrdən keçib gəldiyimi xatırlamağa, anlamağa çalışdım. Gördüm ki:

***Bütün itirdiklərim***
***tapdıqlarımın önündə***
***bəlkə də sizə görə***
***ölçüyə gəlməz -***
***heç nədi***
***itirdiklərim***
***inciməsin***
***tapdıqlarım***
***bu gün üçün***
***gözümün nuru,***
***dizimin taqəti,***
***varlığımın ruhu***
***deməli,***
***ürəyimdir -***
***seçmədi!***
amma
ən böyük bir gerçək var
o da -
itirdikdlərim,
ömrümdən,
həyatımdan
heç də elə-belə
ötüb keçmədi
ağrıtdı məni
ağrıdır indi də!..

***

Həyatın mənzərələri kifayət qədərdi. O mənzərələr içərisində rəhmətlik Məməd Dəmirçioğlunun dediyi kimi, insan sayda insan mənzərələri var. Bax mən də özünəməxsusluğu ilə seçilən, heç bir ölçüyə, standarta uyğun gəlməyən, öz xarakteri, öz yaşamı, hətta danışıq manerası olan Vahid Əlifoğlunun mənzərəsini nə qədər ifadə etməyə çalışıramsa da, nöqtə qoya bilmirəm. Çünki çox qəribə və çalarlarla, cizgilərlə dolu mənzərədi. Bir yazıda, bir şəkildə onların hamısını təqdim etmək mümkün olmur. Ona görə də mən Vahidin barəsində hər dəfə yazında elə bilirəm ki, daha bitdi, bundan belə ancaq onun haqqında düşünəcəm, onu xatırlayacam. Amma neyləyim ki, bu qərarımı özümdən asılı olmadan pozuram. Səbəbi də məhz dediyim o çoxcizgili mənzərədi. Həmin mənzərənin içərisində Vahidin dostları da, elə Ələddin Qəmbər də var. Mən bunu görməyə bilmirəm. Gördüyümü də yazmaya bilmirəm. Məhz həmin gördyümdən sonra bu misraları yazdım:

***İçimdə od keçirib***
***Çəkdirirsən hər günah***
***Məni belə incidib -***
***Belə sınamaq günah!...***

***Yönüm sənə - qibləyə***
***Bunu nə var bilməyə!***
***İnanırsa kim nəyə-***
***O cür açılır sabah!..***

***Sənsən mənə dözüm də***
***Amma sənin gözündə***
***Elə mənim özüm də -***
***"Ah"dı, bir də ki, günah!..***

***Hansı qəmi geyim ki,***
***Ta qalmadı heyim ki?!***
***İstəyirəm deyim ki -***
***Gecik, açılma sabah!..***

Hə, mən o günü elə istəyirdim Vahid də, Ələddinlə mənim söhbətimin iştirakçısı olsun. Amma istəklə hər şey olmur ki!